*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2026*
*Səh. 120-124*

https://doi.org/10.62837/2026.3.120

**Azərbaycan Tibb Universiteti**
**Xarici Dillər kafedrası.**
**HƏSƏNOVA REYHAN**
**rhasanovas@amu.edu.az**
**QULUYEVA ŞƏRGIYYƏ**
**sguliyeva1@amu.edu.az**
**ƏLIYEVA SAMIRƏ**
**Seliyeva3@amu.edu.az**

# XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ ƏYANI VƏSAİTLƏRDƏN İSTİFADƏNİN METODIKI ƏSASLARI

**Xülasə**

Əyani vəsaitlər vasitəsilə xarici dillərin tələbələrə intensiv öyrədilməsi və optimal dil materiallarının verilməsi üçün ciddi elmi tədqiqat işləri aparılmalıdır. Xarici dillər öz lüğət ehtiyatına zənginləşir. Əyani vəsaitlərdən istifadə dil fəaliyyətini, oxuma və yazını intensivləşdirir , tələbə onun əsasında öz fikrini başqasına çatdırır. Xarici dil dərslərində əyani vəsaitlərdən istifadə edərək oxu və tərcümə dərslərinə diqqət yetirilir .

Əyani vəsaitlər kommunikativ yanaşmanın əsasını təşkil edir. Tədrisin əsas məqsədi xarici dil dərslərində əyani vəsaitlərdən istifadənin elmi - metodik əsaslarını araşdırmaq və onların təlimin effektivliyinə təsiri müəyyənləşdirməkdir. Müasir dövrdə qloballaşma prosesinin sürətlənməsi və beynəlxalq ünsiyyətin gücləndirilməsi tələblərindən birinə çevrilmişdir. Əyani vəsaitlərin rəngarəngliyi misallarla tələbələrə izah etmək müəllimdən çox böyük bacarıq tələb edir. Əyani vəsaitlər təlim prosesində biliklərin mənimsənilməsini asanlaşdıran , öyrənilən obyekt və hadisələrin vizual və konkret təqdimatını təmin edən didaktik vasitələrdir.

Bu vasitələr tələbələrdə abstrakt anlayışların formalaşmasına , idrak fəaliyyətinin aktivləşməsinə və təlim materiallarının daha dərindən qavranılmasına şərait yaradır. Hər bir dilin leksikasının spesifik xüsusiyyətləri vardır. Bu xüsusiyyətlər isə digər dilin leksikası ilə müqayisəli öyrəndikdə yaxşı nəticə əldə etmək olar. Tələbələrin şifahi nitqi zəif öyrənmələrinin səbəblərindən biri onların əyani vəsaitlərdən lazımi qədər yararlanmamasıdırı.(1.3-4) Xarici dillərin tədrisi prosesində xarici dillərin tədrisi əyani vəsaitlərdən istifadənin elmi - metodik əsaslarını araşdırmaq və onların təlimin effektivliyinə təsirini müəyyənləşdirməkdir.

**Açar sözlər : əyani vəsait, anlama prosesi, ideya , planlaşdırma**

Burada mətn demək olar ki , bir neçə əsas istiqaməti əhatə edir. Birinci hissədə əyani vəsait anlayışı və onların pedaqogika elminə tutduğu yeri izah edir. Burada əyani vəsaitlərin növləri – vizual , audiovizual və interaktiv vasitələr stimullaşdırılır və onların xarici dil təlimində tətbiq imkanları şərh edilir. Burada əyani vəsaitlərin

tələbələrin idrak proseslərinə - diqqət , yaddaş , təfəkkürə - təsiri elmi mənbələrə əsaslanaraq təhlil olunur. (2.17) Xarici dil dərslərində əyani vəsaitlərin istifadəsinin metodik xüsusiyyətləri də araşdırılmalıdır.

Əyani materialların dərsin mərhələlərinə uyğun seçilməsi, məqsədyönlü tətbiqi və ya xüsusiyyətlərinə uyğunlaşdırılması məsələləri ön plana çəkilir. Xarici dil dərslərində əyani vəsaitlərin istifadəsinin xüsusiyyətləri araşdırılır.

Əyani materialların dərsin mərhələlərinə uyğun seçilməsi , məqsədyönlü tətbiqi və ya xüsusiyyət uyğunlaşdırılması məsələləri qiymətləndirilir. Burada leksik qrammatik tapşırıqlar əsas yer tutur . Müasir texnologiyaların -rəqəmsal resurslar , interaktiv proqramlar və digər onlayn platformaların xarici dil təlimində əyani vəsait kimi istifadəsi məsələsi araşdırılır.Bu vasitələrin tələbələrin müstəqil öyrənmə bacarıqlarının formalaşmasına, motivasiya Latın artmasına və kommunikativ yanaşmanın reallaşdirilmasina verdiyi

tövhə qiymətləndirməlidir.

Ümumiyyətlə xarici dillərin tədrisində əyani vəsaitlərdən istifadə təlimin keyfiyyətinin yüksəldilməsində mühüm amillərdən biridir.. Əyani vəsaitlərin tələbələrin dil materiallarını daha aydın qavramasına,yadda saxlamasına və praktik fəaliyyətə tətbiq edilməsinə şərait yaradır. Görmə və eşitmə analizatorlarının eyni vaxtda iştirak etdiyi təlim prosesi idrak fəallığını artırır, tələbələrin dərsə marağını gücləndirir və təlimin effektivliyini yüksəldir.

(3.səh 11-12) Audiovizual əyani vasitələrə flaşkartlar , (söz–şəkil kartlar) cədvəllər və sxemlər, plakatlar və divar lövhələrini aid etmək olar.

Bu vəsaitlər görmə yaddaşını aktivləşdirir və xüsusilə başlanğıc səviyyədə çox effektivdir.Tətbiq dairəsi dinləmə bacarığının formalaşması düzgün tələffüzün öyrədilməsi,real ünsiyyət mühitinin yaxşılaşdırılmasına əsaslanır.

Bunlara audio materiallar ,audioyazılar (dialoqlar , mətnlər) cizgi filmləri və qısa səhnələr subtitrlər təqdim olunan materiallar aiddir Müasir təlimdə xüsusilə interaktiv lövhələr,kompüter və planşetlər, təqdimatlar, və mobil tətbiqlər və onlayn platformalar tələbələrin motivasiyasini artırır

Müasir pedaqoji yanaşmalara əsasən, əyani vasitələr təkcə köməkçi vasitə deyil, xarici dil təliminin struktur elementlərindən biri kimi çıxış edir . Şəkillər, cədvəllər, sxemlər , video çarxlar, interaktiv lövhələr və multimedia texnologiyaları dil bacarıqlarının - dinləmə, danışma, oxu və yazının formalaşmasında mühüm rol oynayır.

Bu səbəbdən əyani vasitələrin didaktiv və metodik imkanlarının öyrənilməsi elmi və praktik baxımdan aktualdır. Bu vasitələr tələbələrin müstəqil öyrənmə bacarıqlarının formalaşmasına, motivasiyasına və kommunikativ yanaşmanın reallaşdirilmasina kömək edir. Əyani vasitələrin seçilməsində dərsin məqsədyönlü seçilməsi tələbələrin yaş və dil səviyyələri nəzərə alınır.

Metodik yanaşmalar sadə və anlaşılan olmalıdır. Xarici dil biliyi yalnız ünsiyyət vasitəsi kimi deyil , həm də fərdin intellektual inkişafında dünyagörüşünün formalaşmasında və peşə hazırlığında mühüm rol oynayır. Tədris prosesində istifadə olunan vəsaitlər kimi görmə - şəkillər, xəritələr, cədvəllər, fləş- kartlar və eşitmə - dialoq yazıları, mahnıları qeyd etmək olar. Audio vizual vəsaitlərə -təlimlər, video çarxlar interaktiv təqdimatları qeyd etmək olar.

Bu da xarici dillərin tədrisi prosesində əyani vəsaitlərdən istifadəsində elmi-metodik əsasların araşdırmağa və onların təlimin effektivliyinə təsirini müəyyənləşdirməkdir. ( səh 22-24) Vizual materiallar , şəkillər, video və multimedia vasitələri təlim prosesində motivasiyanı artırır, idrak fəallığını gücləndirir və kommunikativ bacarıqların formalaşmasına müsbət təsir göstərir. Əyani vəsaitlərin üstünlükləri motivasiyanı artırmaqla bərabər dərsi daha maraqlı və canlı edir. Yaddaşı möhkəmləndirir. Vizual informasiya daha uzun müddət yadda qalma qabiliyyətinə malikdir. Söz ehtiyatını genişləndirir. Burada yeni sözlər konkret obrazla əlaqələndirir. Danışıq bacarığını inkişaf etdirir. Şəkil təsviri və müzakirələr nitqi aktivləşdirir, mədəniyyətlərarası məlumat verir və şəkillər vasitəsilə həmin dilin mədəniyyəti öyrədilir. Tədrisdə əyanilik prinsipi didaktikanın ən fundamental qaydalarından biridir .

Əyani vəsait dərsin məqsədi deyil , vasitəsi olmalıdır. Həddindən artıq və mövzu ilə birbaşa əlaqəsi olmayan vəsaitlər tələbələrin diqqətini əsas mövzudan yayındıra bilər. Müasir təhsildə interaktiv lövhələr və virtual reallıq texnologiyaları əyaniliyi ən yüksək səviyyəyə çatdırmaq tələbəyə hadisənin "içində" olmaq imkanı verir. Burada vizuallaşdirma mürəkkəb məlumatları strukturlaşdirir və "xarici yaddaş" rolünü oynayaraq beynin resurslarını məlumatı yadda saxlamağa deyil, onu anlamağa və analiz etməyə yönəldir .

Beləliklə, əyani vəsaitlərin xarici dil dərslərində təlimin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynadığı əsaslandırılır və onların səmərəli istifadəsi üçün metodik tövsiyələr irəli sürülür. Tədris və təqdimat zamanı əyanı vəsaitlərdən ( şəkillər, modellər, laboratoriya, video materiallar) istifadə labüddür. Əyani vəsaitlər xarici dil tədrisində kommunikativ bacarıqlarının formalaşdırılmasına tələbələrin fəallığının artma səviyyəsinə şərait yaradır. Müasir dövrdə texnologiyanın inkişafı və vəsaitlərin tətbiq imkanlarının daha da gücləndirilmişdir.

**Гасанова Рейхан**
**Кулиева Шаргия**
**Алиева Самира**

## МЕТОДИЧЕСКИЕ ОСНОВЫ ИСПОЛЬЗОВАНИЯ НАГЛЯДНЫХ СРЕДСТВ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ ИНОСТРАННЫМ ЯЗЫКАМ

## РЕЗЮМЕ

**Ключевые слова: цель, этап, процесс освоения, планирование, усвоение.**

В статье рассматривается значение использования наглядных средств в процессе обучения иностранным языкам. Наглядные средства способствуют более эффективному восприятию, усвоению и применению языкового материала учащимися. Были проведены серьёзные научные исследования о влиянии использования наглядных средств на эффективность данного процесса. Обучение иностранному языку — сложный процесс. Необходимо искать методы для правильного осуществления этого процессе. Группа методистов пытается доказать, что студентов следует обучать устной речи. Если у студентов нет словарного запаса, тогда как он может говорит.

Трудность заключается в том, что студенты сталкиваются с новыми словами и структурами. Если у студентов не хватает словарного запаса, они не могут говорить. В статье рассматривается значение использования наглядных средств в процессе обучения иностранным языкам. Наглядные средства способствуют более эффективному усвоению и применению изучаемого материала учащимися.

Использование визуальных ресурсов, таких как изображения, таблицы, схемы, видеоматериалы повышает мотивацию и способствует формированию коммуникативных навыков. Английский язык является одним из самых богатых языков в мире, благодаря своему словарному запасу. Делается вывод о том, что наглядные средства является неотъемлемой частью современного иноязычного образования.

**Hasanova Reihan**
**Aliyeva Samira**
**Guliyeva Shargiya**

**METHODOLOGICAL FOUNDATIONS OF USING VISUAL AIDS IN FOREIGN LANGUAGES TEACHING**

**SUMMARY**

**Key words: process, ideas, stages, visual aids, comprehension process.**

Learning the English language is a complex process. It is necessary to look for methods for the correct implementation of this process. The article examines the significance of using visual aids in the process of foreign language teaching. Although the methodologists have done some work in this area, they define that a group of methodologists is trying to prove that students should only be taught oral speech.

Another group is trying to prove that oral speech is necessary. English is considered one of the richest languages in the world. “Visual aids facilitate learners’ comprehension, retention, and practical application of language material. Visual resources such as pictures, charts, posters, diagrams, videos and multimedia tools

enhance learners' motivation, stimulate cognitive activity, and contribute to the development of communicative skills.

The use of visual aids activates language reading and writing. The student communicates his thoughts to others. The study analyzes the didactic and methodological potential of visual aids and identifies effective ways of integrating them into foreign language instruction. The findings indicate that visual aids constitute an essential component of modern foreign language teaching.

**Ədəbiyyat .**

1) Harmer J . "How to teach English " London Longman 2015
2) Məmmədov F. M "Dil təlimində müasir pedaqoji texnologiyalar". Bakı 2019.
3) Abbasov Ə.N.,"Xarici dillərin tədrisi metodikası." Bakı,2016
4) Пассов Е.U "Коммуникативных метод обучения иноязыкному говорению" Москва Просвещение 2012

**Rəyçi : prof. Məmmədova Z. Ş**